Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında
Dövlət Vergi Xidmətinin rəisinin
20 may 2026-cı il tarixli 2617140100684600 nömrəli
əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İstifadəçi təcrübəsinin öyrənilməsi (tədqiqatı) laboratoriyasının**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İstifadəçi təcrübəsinin öyrənilməsi (tədqiqatı) laboratoriyası"nın (bundan sonra - Laboratoriya) əsas məqsədlərini, fəaliyyət istiqamətlərini, vəzifələrini və hüquqlarını, fəaliyyətinin təşkilini müəyyən edir.

1.2. Laboratoriya İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində (bundan sonra - Dövlət Vergi Xidməti) vergi ödəyicilərinə göstərilən xidmətlərin (təqdim olunan məhsulların) istifadəçi təcrübəsinin öyrənilməsi (tədqiqatı) sahəsində (bundan sonra - müvafiq sahədə) bu Əsasnamə ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələri icra edir və hüquqları həyata keçirir.

1.3. Laboratoriya Dövlət Vergi Xidmətinin Aparatının vergi ödəyicilərinə xidmət sahəsi üzrə funksional nəzarəti həyata keçirən struktur bölməsinin nəzdində (rəhbərliyi altında) ictimai əsaslarla və daimi fəaliyyət göstərir.

1.4. Laboratoriya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"ni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə İqtisadiyyat Nazirliyinin qərarlarını, Nazirliyin və Dövlət Vergi

Xidmətinin əmrlərini, sərəncamlarını (bundan sonra - İqtisadiyyat Nazirliyinin qərarları, Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrləri və sərəncamlarına münasibətdə - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.5. Laboratoriya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələri, strukturuna daxil olan qurumları və strukturuna daxil olmayan tabeliyindəki qurumu (bundan sonra - Dövlət Vergi Xidmətinə münasibətdə - Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları), dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Laboratoriyanın əsas fəaliyyət istiqamətləri

2.0. Laboratoriyanın əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. Dövlət Vergi Xidməti tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin müştəriyönümlülük dəyərləri tətbiq edilməklə və istifadəçi təcrübəsinin öyrənilməsinə (tədqiqatlarına) əsaslanmaqla optimallaşdırılmasının, təkmilləşdirilməsinin, inkişaf etdirilməsinin, aydın və başa düşülən olmasının, onların vergi ödəyicilərinin ehtiyac və tələbatlarına uyğunluğunun və əlverişliliyinin (“user-friendly”) müəyyən edilməsini, rəqəmsallaşdırması sahəsində işlərin görülməsini təmin etmək;

2.0.2. Dövlət Vergi Xidmətinin vergi ödəyicilərinə göstərilən yeni xidmətlərinin, o cümlədən proaktiv və situativ (interaktiv) xidmətlərin yaradılmasını və inkişaf etdirilməsini, mövcud xidmətlərin (məhsullarının) yenidən layihələndirilməsini təmin etmək;

2.0.3. Müvafiq sahədə dövlət vergi siyasətinin formalaşmasında iştirak etmək;

2.0.4. Müvafiq sahənin inkişafı üçün tədbirlər görmək;

2.0.5. Müvafiq sahədə normayaratma fəaliyyətində iştirak etmək.

## 3. Laboratoriyanın vəzifələri

3.0. Laboratoriya bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Dövlət Vergi Xidməti tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin (təqdim olunan məhsulların) istifadəçi təcrübəsinin tədqiqatlarını (öyrənilməsini) həyata keçirmək;

3.0.2. Dövlət Vergi Xidmətinin strukturlarının rəsmi müraciətlərinə əsasən istifadəçi təcrübəsinin tədqiqatlarını (öyrənilməsini) həyata keçirmək;

3.0.3. Dövlət Vergi Xidmətinin vergi ödəyicilərinə göstərilən elektron xidmətlərinin təkmilləşdirilməsini, əlçatanlığını təmin etmək;

3.0.4. Müvafiq sahə üzrə beynəlxalq təcrübənin və innovasiyaların öyrənilməsi, tətbiqinin həyata keçirilməsi istiqamətində tədbirlər görmək;

3.0.5. Dövlət Vergi Xidmətinin aidiyyəti strukturları ilə birlikdə müvafiq sahədə strategiyaların həyata keçirilməsində iştirak etmək;

3.0.6. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirmək.

## 4. Laboratoriyanın hüquqları

4.0. Laboratoriya öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. İstifadəçi təcrübəsinin tədqiqatlarına metodoloq qismində vergi ödəyicilərinə göstərilən xidmətlərə (təqdim olunan məhsullara) məsul olan strukturlardan əməkdaşları cəlb etmək;

4.0.2. İstifadəçi təcrübəsinin tədqiqatlarına tədqiqatçı qismində müqavilə əsasında mütəxəssis(lər)i və (və ya) icraçı şirkəti cəlb etmək;

4.0.3. Laboratoriyanın tədqiqatçılarının istifadəçi təcrübəsinin öyrənilməsi (tədqiqatı), müştəriyönümlülük dəyərlərinin tətbiqi ilə bağlı və bu sahədə aktual olan digər mövzularda (istiqamətlərdə) təlimlərdə iştirak etmək;

4.0.4. Laboratoriyanın tədqiqatçılarının istifadəçi təcrübəsinin öyrənilməsi (tədqiqatı), müştəriyönümlülük dəyərlərinin tətbiqi ilə bağlı və bu sahədə qabaqcıl təcrübəyə malik xarici ölkələrin vergi administrasiyalarına ezam edilmək, müvafiq sahə üzrə beynəlxalq təcrübəni və innovasiyaları öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı rəhbərliyə təkliflər vermək;

4.0.5. Dövlət Vergi Xidməti tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin istifadəçi təcrübəsi metodologiyası əsasında sınaqdan keçirilməsi üçün müvafiq rəqəmsal alətlərdən və metodlardan istifadə etmək;

4.0.6. Laboratoriyada tədqiqatlara respondent qismində aidiyyəti hədəf auditoriyasına aid vergi ödəyicilərini cəlb etmək;

4.0.7. Laboratoriyada tədqiqatlara respondent qismində vergi orqanlarının əməkdaşlarını cəlb etmək;

4.0.8. Laboratoriyanı İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və müvafiq sahə ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Vergi ödəyicilərinə xidmət sahəsi üzrə funksional nəzarəti həyata keçirən struktur bölmənin əməkdaşları vasitəsilə təmsil etmək;

4.0.9. Elektron vasitələrdən istifadə etməklə və ya zərurət yarandıqda dəvət etməklə vergi ödəyiciləri və vergi orqanlarının aidiyyəti strukturlarının əməkdaşları ilə müzakirələr aparmaq və onlardan izahat almaq;

4.0.10. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə vergi orqanlarının aidiyyəti strukturlarının əməkdaşları və vergi ödəyiciləri ilə sorğular keçirmək;

4.0.11. Müvafiq sahədə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsində iştirak etmək;

4.0.12. Müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək və normayaratma fəaliyyətindən irəli gələn digər hüquqları həyata keçirmək;

4.0.13. Zəruri maddi-texniki təchizat, proqram təminatı və xidmətlə təmin edilmək;

4.0.14. Müəyyən edilmiş hədəflərə nail olmaq üçün zəruri insan və digər resurslarla təmin edilmək;

4.0.15. Laboratoriya fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində təkliflər vermək;

4.0.16. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Laboratoriyanın fəaliyyətinin təşkili

5.1. Vergi ödəyicilərinə xidmət sahəsi üzrə funksional nəzarəti həyata keçirən struktur bölmə tərəfindən Dövlət Vergi Xidmətində istifadəçi təcrübəsinin (tədqiqatının) həyata keçirilməsinə və Laboratoriyanın fəaliyyətinin təşkilinə ümumi rəhbərlik edilir.

5.2. Vergi ödəyicilərinə xidmət sahəsi üzrə funksional nəzarəti həyata keçirən struktur bölmənin rəhbəri:

5.2.1. Laboratoriyanın fəaliyyətini təşkil edir;

5.2.2. Laboratoriyada tədqiqatların keçirilməsinə rəhbərlik edir;

5.2.3. Laboratoriyada tədqiqatlara cəlb olunacaq xidmətləri (məhsulları) müəyyən edir;

5.2.4. Laboratoriyada tədqiqatlara cəlb olunacaq əməkdaşları müəyyən edir;

5.2.5. Laboratoriyada tədqiqatların nəticələrinə dair sənədləri imzalayır;

5.2.6. İstifadəçi təcrübəsinin tədqiqatı ilə bağlı mütləq hədəfləri müəyyən edir.